*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 257-261*

https://doi.org/10.62837/2025.9.257

**Müəllim QULIYEVA ŞƏRQIYƏ MAHMUD**
**squliyeva1@amu.edu.az**
**Müəllim ƏLIYEVA SAMIRƏ HAFIZ**
**seliyeva3@amu.edu.az**
**Müəllim ALLAHVERDIYEVA GÜLNAR ƏLI**
**gallahverdiyeva@amu.edu.az**
**Azərbaycan Tibb Universiteti**

# XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ İNTERAKTİV TƏLİM METODLARININ KOMMUNİKATİV KOMPOTENSİYANIN FORMALAŞMASINDAKI ROLU

## X Ü L A S Ə

**Açar sözlər:** *xarici dil, interaktiv, metod, kommunikasiya, tədris texnologiya, öyrənmə prosesi*

Məqalə xarici dillərin tədrisində interaktiv metodların tətbiqi tələbələrin öyrənmə prosesində fəallığını artırır, komunikativ bacarıqlarını inkişaf etdirir və dilin praktik istifadəsini təmin edir. Müasir dövrdə informasiya texnologiyalarının tədrisə inteqrasiyası dərslərin keyfiyyətini yüksəldir və öyrənənlərdə dilə marağı gücləndirir. Müasir dövrdə xarici dillərin tədrisində interaktiv metodlardan istifadə tədrisin keyfiyyətinin yüksəlməsində böyük rol oynayır. Bu metodlar tələbələrin kommunikativ bacarıqlarının yaradıcılığını və öyrənməyə motivasiyasını artırır. İnteraktiv tədris prosesi müəllim mərkəzi yanaşmadan şagird mərkəzi tədrisə keçidi təmin edir. Qloballaşma və informasiya texnologiyalarının sürətli inkişaf nəticəsində xarici dil biliklərinə olan tələbat daha da artmışdır. Müasir dövrdə yalnız qrammatik qaydaların öyrədilməsi deyil, eyni zamanda kommunikativ bacarıqların formlaşdığı əsas məqsədə çevrilmişdir. Bu baxımdan interaktiv metodların tətbiqi ənənəvi tədris üsullarına nisbətən daha səmərəli nəticələr verir. Ölkəmizin gələcək inkişafında ən önəmli rolu təhsil sisteminin səviyyəsinin yüksəldilməsi təşkil edir. Təhsilin modernləşdirilməsi cari problemlərin ən vaciblərindən biridir. Təhsildə müasirləşmə ənənələr arenasında sərbəst düşüncə idisə, müasir dövrümüzdə islahatların mövqeyini müəyyən edir. İnteraktiv metodlar tələbələri fikirləşməyə müzakirə etməyə, fikir bildirməyə və problem həll etməyə sövq edir.

Xarici dillərin tədrisində interaktiv metodların tətbiqi müasir pedoqoji prosesin əsas istiqamətlərindən biridir. İnteraktiv metodlar tələbə və müəllim arasında qarşılıqlı əlaqəni həmçinin tələbələrin fəal iştirakını təmin edir. Bu yanaşma öyrənənlərin dil bacarıqlarının inkişafına, kommunikativ qabiliyyətlərinin formalaşmasına da öyrənilən dili real şəraitdə tətbiq etmələrinə şərait yaradır. Multimedia resursları, onlayn platformalar, interaktiv lövhələr və tətbiqlər dərsləri daha maraqlı və effektiv edir. ənənəvi metodlardan fərqli olaraq interaktiv metodların

özünəməxsus üstünlükləri mövcuddur. Bunlar tələbələrdə motivasiya və öyrənməyə çox maraq oyadır. Dil bacarıqları – dinləmə, danışma, oxuma və yazma balanslı şəkildə inkişaf edir. İnteraktiv metodda kommunikativ yanaşma daha da inkişaf edir, güclənir. Bu zaman tələbələr dili yalnız qaydalar toplusu deyil, ünsiyyət vasitəsi kimi dərk edirlər. Fikir mübadiləsi və əməkdaşlığı inkişaf etdirilən və lazımi mühit yaradırlar. Belə ki, müəllim və tələbə arasındakı emosional və pedaqoji əlaqə möhkəmlənir. Təhsildə müasirləşmə, təlim sistemində internetin yüksək səviyyədə olmasını və tələbələrin intellektual səviyyəsinin artmasına kömək edir. Müasir tədris prosesinin qarşısındakı əsas məqsədlərdən biri təlim və tərbiyəsinin bərabər müstəvidə vəhdət təşkil etmişdir. Hazırkı dövrümüzdə təlim prosesi milli –mənəvi dəyərlərin qorunub saxlanılasıa istiqamətlənməlidir. Fəal təlimin tələbələrə bilik verməklə yanaşı, həm də onların əqli, əxlaqi, iradi, mədəni, estetik, hüquqi dəyərləristiqamətində formalaşdırılır. Cəmiyyətin inkişafının əsasını təhsilin inkişaf təşkil edir. Xarici dil dərslərində qrup metodları kimi beyin yanaşması da əsas yer tutur. Qrup metodları və ya işlərini təşkil edərkən tələbələri qruplara bölmək lazımdır. Təhsil prosesində aktiv iştirakçıların olmasını müasir metodla zənginləşdirmək üçün həm tədris keyfiyyətini, həm də tələbələrin motivasiyasını artırmaq vacib şərtlərdən biridir. Müasir dövrdə xarici dillərin geniş vüsət alması təsadüf deyildir. Xarici dillərin tədrisində keyfiyyəti ictimai təlabata çevrilmişdir
(2. Səh.3). Qloballaşma və informasiya texnologiyalarının sürətli inkişafı nəticəsində xarici dil biliklərinə olan tələbatı daha da artmışdır. Müasir dövrdə yalnız qrammatik qaydalarına öyrədilməsi deyil, eyni zamanda kommunikativ bacarıqların formalaşdırılması əsas məqsədə çevrilmişdir. Bu baxımdan interaktiv metodların tətbiqi ənənəvi tədris üsullarınanisbətən daha səmərəli nəticələr verir. İnteraktiv tədris prosesi mərkəzi müəllim yanaşmadan tələbə mərkəzi tədrisə keçid təmin edir. Müzakirə, debat, rol oyunu, debat qrup işi, oyunlar və rəqəmsal texnologiyalar kimi üsullar tələbələrin həm dil biliklərini, həm də tənqidi və analitik düşünmə qabiliyyətlərini inkişaf etdirir. Fəal interaktiv təlim prosesininelə təşkili formasıdır ki, burada müəllim bilikləri ötürən rolundan imtina etməklə yeni bir vəzifəni bələdçi vəzifəsini öz üzərinə götürmüş olur. Biliyin qrup və cütlərlə iş formalarından müntəzəm şəkildə istifadə etməklə axtarılıb tapılması ön plana çəkilir. Bu cür təlim texnologiyası ilə təşkil olunan dərslərdə əvvəlcə problemə istiqamət verəcək motivasiya yaradılır. Motivasiya problemə çıxaracaq məsələnin qoyulmasıdır. İnteraktiv biliklərin tələbələrə hazır şəkildə verilməsini deyil, bu biliklər daha çox onların özlərinin birlikdə axtarıb tapmalarına yardımı nəzərdə tutduğundan təlim prosesində müəllim təşkiledici, əlaqələndirici, istiqamətverici və məsləhətverici, tələbələr isə təcrübəçi, tədqiqatçı və yaradıcı subyektlər kimi fəaliyyət göstərirlər. idrakın və kommunikativ fəaliyyətin elə bir formasıdır ki, tədris olunan mövzunun mənimsənilməsinə proses iştirakçılarının hər biri öz töhfəsini verir. Bu prosesdə

yalnız müəllimlə tələbələr deyil, həm də tələbələr öz aralarında söhbət və dialoq rejimində fəaliyyət göstərirlər.




İnteraktiv təlim zamanı müəllim və tələbə arasında mümkün əlaqə sxemi bu şəkildə göstərilmişdir (3. Səh.4-5). Kommunikativ yanaşma dilin öyrənilməsini real ünsiyyət vasitəsi kimi qəbul edir. Tələbə yalnız məlumat qəbul etmir, həm də öyrənciliyini tətbiq edir, müzakirə edir və nəticə çıxarır. İnteraktiv təlimin mahiyyəti tələbələrin dərs prosesində passiv dinləyici deyil, bilik yaradan, fikir söyləyən və əməkdaşlıq edən fəal iştirakçıya çevrilməsidir. Bu yanaşma öyrənməni daha maraqlı yaradıcı və məhsuldar edir. Metodlar əksər hallarda sərbəst işi, müstəqil fəaliyyət və prosesi müdaxiləsi ilə meydana çıxır. Bir tərəfdən də interaktiv tələbələrin arasında təzahür edir. Bu prosesdə tələbə - tələbə və müəllim – tələbə münasibətlərinin eynihüquqlu mövqedə olması əsasdır. İnteraktiv metodlar ən çox cütlərlə və qruplarla iş, beyin fırtınasıikt və digərləri. İnteraktiv metodlar zamanı tələbələrdə təfəkkürün inkişafı mühüm rol oynayır. Qrup müzakirələrini, debatlar və dialoqlar zamanı tələbələr öz fikirlərini aydın ifadə etməyi və başqalarının fikrinə hörmətlə yanaşmağı öyrənirlər. İnteraktiv təlimdə qrup işi mühüm yer tutur. Bu da tələbələrin bir-biri ilə əməkdaşlıq etmə qabiliyyətini artırır. Fəal iştirak tələbələrdə maraq və həvəs yaradır, bu da öyrənmə nəticələrinin daha da yüksək olmasına səbəb olur. Praktiki tapşırıqlar, oyunlar, kartlar oyunlar və rollu situasiyalar vasitəsilə biliklər daha yaxşı yadda qalır. Diskussiya və debatlar zamanı tələbələr mövzu ətrafında fikir mübadiləsi apararaq həm lüğət ehtiyatını artırır, həm də düzgün danışıq səviyyəsi tənzimləyir. Ümumiyyətlə xarici dili tədris edən müəllim dilin proqram səviyyəsində öyrədilməsi ilə kifayətlənməməli, həm də tələbələrin ümumimədəni səviyyəsinin artmasına çalışmalıdır. Bütün bunlara nail olmaq üçün müəllim tədris etdiyi fənni, onun tədris metodikasını dərindən bilməli, pedaqoji ustadlığa yiyələnməli, öz işinə sədaqətlə yanaşmalıdır (4. Səh. 22-23).

Təlim prosesinin tələbə - tədqiqatçı dayanan konstrukturizm nəzəriyyəsinə əsaslanan tələbə cism və hadisələrlə münasibətdə olur, əlaqə yaradır və nəticədə onların mahiyyətini anlayır, əlamətlənir, qavrayırortalığa çıxan problemin həllinə aid ola bilər. Müasir tədris prosesinin qarşısındakı əsas məqsədlərindən biri təlim və tərbiyənin bərabər müstəvi vəhdət təşkil edir. Təlim prosesi zamanı tələbələr arasında əlaqə, əməkdaşlıq və qarşılıqlı təsir əsasdır. Təlim prosesində əməkdaşlığın qarşılıqlı qüvvəsi ilə təlim nəticəsi əldə edilir. Fəal təlim tələbələrə bilik verməklə yanaşı həm də onların əqli əxlaqi, iradi, mədəni, estetik, hüquqi dəyərlər istiqamətində

formalaşır. Beləliklə, xarici dillərin tədrisində interaktiv metodların tətbiqi tədris prosesini daha səmərəli cəzbedici edir. Bu metoddan dilin tədrisində ənənəvi, passiv öyrənmə üsullarını əvəz edərək tələbələrin şəxsiyyət yönümlü, kommunikativ və yaradıcı şəkildə inkişafını təmin edir. Müasir qloballaşma prosesi insanların bir-biri ilə daha sıx ünsiyyətə girməsini təmin edir. Bu səbəbdən xarici dillərin öyrənilməsi və öyrədilməsi təhsil sisteminin əsas prioritetlərindən birinə çevrilmişdir.

**Quliyeva Şarqiyya**
**Aliyeva Samira**
**Allakhverdiyeva Gulnara**

## THE ROLE OF INTERAKTIVE TEACHING METHODS IN THE FORMATION OF COMMUNICATIVE COMPETENCE IN FOREIGN LANGUAGE EDUCATION

**Keywords:** *foreign language, interactive methods foreign language teaching, communication, motivation*

The use of interactive methods in teaching foreign language plays a crucial role in enhancing learners` communicative competence and motivation. This methods encourage active participation, collaboration and creativity process from a teacher centered to a learner – centered model. Through techniques such as discussions, role plays games and multimedia tools, learners` develop not only linguistic skills but also critical thinking and problem solving abilities. The integration of interactive approaches makes language move engaging effective and adoptable to the muds of modern education modernization, dominance of internet and sosio-political reform in countries, at time of high technological development has greatly changed. It changed in potential strategic resource in this are of modernization in education was a fine though in the area of traditions in modern time. Every student has his own interests, ideal and vital desires that must the content, methods and technologies. Teachers, who meet the requirements of modern times are needed to renew education. The methods, forms are techniques used by the teacher in the learning and teaching process include learning strategic. In modern times the lesson should develop students world great and intellectual level , create favorable conditions for strengthening of students beliefs. The employment of new techniques and information –communication technologies in higher education all systems the training problems. One of the main goals of modern educational process is to white education an upbringing of an equal footing.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 257-261*

**Пред. Кулиева Шаргия**
**Пред. Алиева Самира**
**Пред. Аллаквердиева Гюльнар**

## РОЛЬ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ В ФОРМИРОВАНИЕ КОМПЕТЕНЦИИ ПРИ ПРЕПОДАВАНИИ КОММУНИКАТИВНОЕ ИНОСТРАННЫХ ЯЗЫКОВ, ТЕХНОЛОГИИ

### Р Е З Ю М Е

**Ключевые слова:** *иностранных язык, интерактивные методы, коммуникация, обучение учебный процесс*

В статье зфыыьфекшмфум интерактивных методов в пренодавании иностранных языков. Использование интерактивных методов повышает активность студентов в учебном процессе, развивает коммуникативными навыки и способствует практическому применению языка. Модернизация образования одна из важнейших задач современности. Если модернизация в образовании была свободной мыслью на арене традиции, то направления реформ в ваше время. Есть насущные желания, что обучение должно удовлетворят эти желания по содержанию и форме. Также условия создают, потребность в обновлении современного обучения по содержанию, методам и технологии. Рам нужны педагогические кадры для обновление образования, методы, форме и приемы. В этой статье нашло место обучении новой технологии в высших учебных заведениях. В настоящие учебный время учебный процесс должен быть направлен на сохранение национальных и нравственных ценностей. Активное обучения не только сообщает студентом знания и формирует их в направлении нравственных культурных, правовых ценностей. Интеграция информационных технологий в современное обучение улучшает качество занятий и усиливаем интерес учащихся к изучению языка.

### Ə D Ə B İ Y Y A T

1.Məmmədova L. “Xarici dillərin tədrisində komunikativ və interaktiv yanaşma üsulları”. Pedaqoji Universitetin Elmi xəbərləri Bakı, 2018;
2. Hüseynova S. “Müasir pedaqoji texnologiyalar və xüsusi dillərin öyrənməsində tətbiqi”. Bakı, “Təhsil” 2020;
3. Тольскова Н.Д., Гез. Н.И. «Теория обучения иностранным языкам». Лингводидактика и методика. Москва Академия 2020;
4. Richards G.C., Rodgers T.S. Approadus and methods in language teaching. Canbridge University Ress 2014.

**Rəyçi: prof. Z.Ş.Məmmədova**